# AZƏRBAYCAN QADIN AŞIQ ŞERİNİN ÖZƏLLİKLƏRİ

## The Specifications of Azerbaijan Woman Ashug Poetry

**Letife HACIYEVA***

***Abstract:*** *In the article is invesigated the specifications of Azerbaijan woman ashug poetry. Woman ashug poetry's form and contest is reseached. This poetry has rich form and contests specifications.*

***Keywords:*** *Azerbaijan, Ashug, Woman, Poetry, Form, Contest.*

Məlum olduğu kimi, Azərbaycan ədəbiyytının zəngin ədəbi irsinin təkamül yoluna diqqətlə nəzər yetirdikdə görürük ki, çox qədim və ən ənənvi xalq yaradıcılığının nümunəsi olan poeziya janrı, bir başa xalq ruhunu özündə ehtiva etməklə, nənələrimizin, analarımızın, təfəkküründən, dilindən süzülüb gələn deyimləri, ibratamiz fikirləri, nəsihətləri əks etdirmiş və mənəvi ruhu özündə daşımaqla, öz müqəddəs ömrünü yaşamış, nəsilərdən, nəsillərə ötürərək milli, mənəvi dəyərlərin, söz, sənət incilərinin yaranmasında bir mənbə kimi önəmli rolunu oynamışdır.

Bu müqəddəs nüansa istinad edərək qeyd etmək istərdim ki, əslində ideya və süjet xətdi boyunca heç də poeziya nümunələrindən fərqlənməyən bu şer nümunələri, zamanında və zamanından sonra belə öz dolğunluğu və lokanikliyi ilə yaddaşlara həkk olaraq, özünə ölümsüzlük qazanan duyğulara çevrilərək, xalqın ruhunu, yaddaşını, mənəviyyatını, əxlaqını ədəbi nümunələrdə

Qoruyub saxlamışdır. Bu mənada poeziyanın bir qolu olan və öz ömrünü yaşayan aşıq qadınlarının mükəmməl şer sənət nümunələri, ideya və sənətkarlıq baxımından bu ən ənəyə sadiq qalmaqla yanaşı, eyni zamanda aşıq şerinin özünəməxsus məziyyətlərini də qoruyub saxlamışdır.

Ədəbi bədii söz sənətkarlığından fərqli olaraq, aşıq şerinin özəlikləri bütün mənalarda özünəməxsusluğu ilə seçilmiş və öz üslubu, məntiqi, baxımından aşıq şer mədəniyyətinin bütün özəlliklərini ehtiva etmişdir.

---

* Araşrırmaçı, yazar

İlk öncədə qeyd etdiyimiz kimi aşıq qadın yaradıcılığı bu baxımdan, özünə məxsusluğu ilə diqqəti cəlb etmiş və ta qədimdən üzü bəri qadın ruhunun, duyğularının, düşüncələrinin, qayğılarının, belə demək mümkünsə dünyada baş verən hadisələrin və eyni zamanda öz dünyalarında yaranan hiss və həyəcanların tərcümanı olaraq poetikləşdirərək duyğularını şerlə züm zümə edərək paylaşmışdılar.

Məs elə qadın aşıq şairlərinin şerləinin özəllikləri də elə bundan ibarətdir ki, ümumən şair və yazarlardan fərqli olaraq el el, oba oba gəzib dolaşmış, hətda xalq deyimlərini belə şerə gətirərək, dünyada baş verən anlaşılmazlıqları və bundan dolayı insan dünyasında yaranan üzüntüləri dilə gətirərək

Məqsəd və məramlarını bu şəkildə ehtiva edib, tarixdə baş vermiş hadisələri xalq ruhuna xas olaraq yaşatmışdırlar.

Zəngin ədəbi irsə malik olan Azərbaycan xalqının bu mənada dəyərli söz sənət fədailəri olmuş və yazmış olduğu dərin incə məzmunlu şerləri ilə yaddaşlara həkk olaraq, Azərbaycan qadınının simvolik olaraq yaddaşlarda dili sözlü söhbətli, nağıllı bayatılı, mənəvi heykəlini yaratmışdırlar.

Vaxtı ilıə yazıb yaratmış, sənətkar ömrü yaşamış, tarixdə adları hörmət və məhəbbətlə anılan qadın aşıqlarından Aşıq Ülkər xanım, aşıq Dilşad xanım, Şirvanlı aşıq Gövhər xanım, Aşıq həmayil xanım

Aşıq Bəsti

Aşəq savad Şəfi qızı

Aşıq Nabat

Aşıq Sənəm

El şairi Nabırlı Badam və sairə.

Bu aşıq qadınlar yazmış olduğu şerlərlə yanaşı, babalarımızdan bizlərə miras qalan, ruhumuzun, yaddaşımızın oyanışını öz ruhunda yenidən bizlərə aşılayan, sazda mükəmməl ifaları ilə də özlərinə məxsus ad- san qazanmışdırlar.

XIX əsrin birinci yarısında aşıq şerinin ən görkəmli nümayəndələrindən biri olan Aşıq Pərinin yaradıcılığına nəzər yetirdikdə sadaladığımız bütün sahələri əhatə edən mükəmməl incilərə rast gəldikcə Azərbaycan qadınının bu mənada əvəz olunmazlığının, mənəvi dünyasının zənginliyinin bir daha şahidi oluruq. Aşıq Pərinin şerlərində vətən məhəbbəti, mənəvi dəyərlər, qadın sədaqəti, ülvü məhəbbət ön plana çəkilir, bəşəri duyğular müqəddəsləşir və əbədi yaşar olaraq

şeyriyyət ömrü qazanır, onun ilahi eşqiylə dolu olan qəlbi həzin duyğularını ehtiva etməklə yanaşı, vəfasızlğı da duyğularından süzülüb gələn məhəbbətlə dolu həsrət və incikliklə dilə gətirir. Bununla yanaşı eyni zamanda yaşadığı dövrdə baş verən siyasi hadisələri də yaradıcı ruhu və təxəyyülü ilə dərk edərək şeirlərində biganə qala bilmir və yeri gəldikcə zəmanəsində baş verən hər hansı bir haqsıslığa öz etirazını bildirir.

Ümumiyyətlə, poeziyaya bir başa aid olan hər hansı bir yaradıcılıq nümunələri, yaradıcı şəxsin kimliyindən asılı olmayaraq, zaman zaman yazarın duyğu və düşüncəsini açıqlamış, dünyda baş verən hadisələrə biganə qalmadığını sübuta yetirmişdir. Bu mənada və öz növbəsində bu yazarlara aid olan Aşıq qadınlar da özlərini öz dünyalarına uyğun və özünəməxsus şəkildə ehtiva etmiş və gözəl mənalı şer nümunələri yazıb yaratmışdırlar.

Bu məqsədlədə aşıq qadınlarının yazmış olduğu şer nümunələri, zaman zaman araşdırmaçılarımız, bilim adamlarımız tərəfindən tədqiq olunmuş, eyni zamanda onların şerlərində olan əsas məziyyətləri araşdırıb açıqlamış və dillər əzbəri olan bu şerlərin bir başa nəsihət və tərbiyəvi əhəmiyyət kəsb etdiyini vurğulamışdırlar.

Təbiidir ki poeziyanın ana xətdi sayılan, əbədi yaşar əbədiyyət ömrü qazanan, məhəbbət mövzusu, aşıq şerindən də yan keçməmiş, heç də bu hissdən xali olmayan, qəlbi incə duyğularla, zəngin mənəviyyatla çırpınan, qadın aşıq şerlərinin ruhu, belə demək mümkünsə bu müqəddəs hiss üzərində köklənmişdir.

Qədim Azərbaycan xalq ədəbiyyatının mükəmməl və bariz nümunəsi sayılan, janır etibarı ilə aşıq şerinin ruhu ilə həmahəng olan Qoşmalar, gəraylılar, təcnislər, bayatılar, müxəmməslər və bir çox bu kimi şeyriyyətin qayəsini, mahiyyətini kəsb edən, aşıq şer nümunələri, milli mənəvi ruhu özündə əks etməklə yanaşı, eyni zamanda vətənpərvərlik, igidlik, cəsurluq, mərdlik kimi ruhu insanların qəlbinə aşılamışdır.

Qadın aşıqlarımızın bu mənada üzərinə düşən böyük məsuliyyət, şərəf və ləyaqət kimi ümumbəşəri hisslər və duyğular, bütün zamanlarda olduğu kimi müasir dövürdə də öz aktuallığını qoruyub saxlamış və aşıq qadınlarımızın bir daha bu irsi davam etməsinə bir təkan olmuşdur.

Bu mənada aşıq qadınlarımızın, Azərbaycan xanımının simvolik olaraq rəmzi, duyğularının tərcümanına çevrilməsi, bir mənalı şəkildə Azərbaycan xanımının heç də kişi aşıqlardan geri qalmadığını sübut etmiş, analarımızın nənələrimizin Həcər qeyrətli qız və gəlinlərimizin davamçısı olduğunu bir daha vurğulamışdır.

İlk öncədə qeyd etdiyimiz kimi, məntik və məzmunca dövürdə baş verən hadisələrə biganə qala bilməyən qadınlarımız, öz duyğu və düşüncələrini şer dili ilə ifa etməklə, eyni zamanda Azərbaycanın aşıq sənətinə zəngin töfhələrini vermiş və milli ruhun ölümsüzlüyünü bir daha öz nəğmələri ilə eldən –elə gəzib, dildən –dilə ötürərək aşıq saz- söz sənətini yaşatmışdırlar.

Bu mənada tarixləşən ədəbiyyatımızın, əbədiləşən söz sənətimizn, heykəlləşən ana məhəbbətimizin tərcümanı olan əbədi yaşar poeziya nümunələrindən biri olan, aşıq şerimizin getdikcə daha da mükəmməlləşməsi və eyni zamanda, qəlbi müqəddəs sözlərlə dolu olan aşıq qadınlarımızın ifasında yeni ruhda yazılıb ərəsəyə gəlməsi sevindirici haldır.

Tariximizi özündə əks etdirən daş kitabələrimizin araşdırılması, mədəniyyətimizin qədim türk mədəniyyəti ilə eyniyyət təşkil etməsi,

Dilimizin, ortaq türkcəmizlə həm ahəng səsləşməsi, bizdə bunu deməyə imkan yaradır ki, Dədə Qorqud boylarında qeyd olunduğu kimi igid, məğrur, cəsur qəhrəmanlarımızla yanaşı, kişi qeyrətli qadınlarımızın da göstərdiyi şücaətdən yeri gəldikcə cöhbət açılır və analarımızın südü ilə bəslənib, böyüyüb boya başa çatan, yaddaşlara adları əbədi olaraq həkk olan oğullarımızın, məs belə xanımların Türk qadınının yetişdirdiyi, övlad oduğunun subutu olduğunu dərk edirsən. Bu hiss də bu hisslə bizi yaşamağa və yaşatmağa sövq edir ki, Azərbaycan Türkününün qadını bütün dünyaya yalnız bəşəri ideyalarla deyil, eyni zamanda bu əbədi dünyamıza öz həzin layala çalmağa, onların ruhunu oxşamağa və məhəbbətini bəxş etməyə qadirdir.

Qeyd etdiyimiz kimi Azərbaycan mədəniyyətundə, folklorunda önəmli yerlərdən birini tutan aşıq yaradıcılığı sadaladığımız özəlliklərlə yanaşı eynu zamanda, milli adət ən ənələrə uyğun olaraq böyük xalq mərasimlərində, el şənliklərində xüsusi olaraq özünə yer almış ve bütün zamanlarda xalqın ruhunu özlərinin sazlı, sözlü məlahətli səsləri ilə insanların könlünü, zövqünü oxşamışdırlar.

Lakin çox təəssüflə bunu da qeyd etmək yerinə düşərdi ki, o dövrün özünə məxsus amansız qayda qanunları heç də qadın azadlığına yetərincə önəm verməmişdir, əksinə bütün zamanlarda olduğu kimi o zamanlarda da qadın hüquqları tapdalanmış və qadın azadlığı sual altında qalmışdır. Bunun məntiqi mənası və dəlili də məs elə bundan ibarətdir ki, Azərbaycanın rayonlarında və kəndlərdə yaşayan bir çox istedadlı qadın aşıqlarımızın taleyi uğursuluqlarla üzləşməli olmuşdur. Belə ki çox az mənbələrdən bizə gəlib çatan aşıq şer nümunələrinə nəzər yetirdikdə o qadınların hansı məhrumiyyətlərlə üzləşdiyinin

şahidi olur, onların acı talelərinin bəhrəsi olaraq pissimis ruhlu və həm də məzmunca çox zəif şer nümunələrinə rast gəlmiş oluruq.

Lakin bununla yanaşı, qadın aşıq şerinə bu haqda, heç də ümumilikdə bu fikirlə yanaşılmamış, onların yazmış olduğu və olduqca çox mükəmməl şer nümunələri xalq yaradıcılığında və folklorunda önəmli yerlərdən birini tutmuşdur.

Klassik aşıq şerlərinin əvəzolunmaz inciləri sayılan, aşıq qadın şerləri bu nöqteyi nəzəriyyədən

Qənaətbəxş sayılaraq, qadın hisslərinin, qadın dünyasının, ana məhəbbətinin ölməz səlnaməsini yaradaraq, sənətkarlıq baxımından ədəbiyyatımızın qızıl səhifələrinə “Aşıq qadınlar “adlı sözünü yazmış və möhürünü vurmuşdur.

O dövürdə olduğu kimi, hazırkı dövürdə də Qadın aşıq şairlərimiz bu ən ənəni davam etdirərək el-el, oba –oba gəzib dolaşır, el şənliklərini, xalq mərasimlərini özünə məxsus şəkildə öz şerlərində təmsil edir, insanların könül dünyasına bir rahatlıq və xöşbəxtlik bəxş edirlər.

Azərbaycan Qadın aşıq şerinin önəmli cəhətlərindən biri də bundan ibarətdir ki, tərbiyəvi əhəmiyyət kəsb etməklə yanaşı, digər Azərbaycan xanımlarının qəlblərində olan və dilə gətirə bilmədiyi arzu və istəkləri qələmə almaqla eyni zamanda elə o qadınlara üzünü tutub onların da öz hüquqlarını, qorumağı, mənafeyini bütün hallarda bildirməyi aşılayır.

Məs ona görə ki aşıq şerində yaranmış nakam eşq, uğursuz tale söylədiyimiz qadın hüquqsuzluğunun bəhrəsi olaraq insanları bütün zamanlar düşündürməyə vadar etmişdir.

Buna misal olaraq, bu gün də qəlbində arzuları nakam qalan və özünü etiraf edə bilməyən qızlarımız, qadınlarımız, həm də onlara bu haqqı çox görən ata və qardaşlarımızın ana və bacılarıdır ki bütün bu sadaladığımız mərhumiyyətlərlə digər həmcinsləri tərəfindən bu istismara məruz qalmışdır.

Ümumiyyətlə bu nüansı xüsusi ilə vurğulamaq yerinə düşərdi ki, yaranmış olan ədəbi nümunələr məs insan idrakının təkamül yolu keçməsinə, kamilləşməsinə, xidmət etməklə yanaşı, eyni zamanda onların mənəvi ruhunun da bilavasitə yetkinləşməsinə rəvac vermişdir.

Əgər belə olmasaydı, sözün, sənətin qüdrəti insanlığın ən ali hisslərini bu gün bizlərə etiraf edən bu gözəl yaradıcıqıq əsərləri olmazdı, Azərbaycan Qadın aşıq şerinin azad ruhu bu gün bizim başımız üzərində dolaşmazdı.

Mən hər şeydən öncə bir Azərbaycanın ziyalı yazar qadını olaraq məs bu ruhu bizlərə aşılayan, mənəvi dünyamızı daha da zənginləşməsinə yardımçı olan dünyasını dəyişmiş və əbədiyyətdə əbədi yaşar dünya qazanmış elim, bilim adamlarımıza, xalqımızın ruhunu ruhumuza hopduran ata analarımıza, dili nağıllı bayatılı nənə babalarımıza rəhmət oxuyuram və deyirəm, qoy sizin ruhunuz həmişə xalqımıza yardımçı olsun və zaman durduqca bu əbədi yaşar şer, sız, sənət məbədi bir ziyarətgaha çevrilərək nəsillərdən nəsillərə ərmağan olsun.

Azərbaycan dilinin saflığını qoruyub saxlayan və heç zaman aşıq şer sənətinin ruhuna xələl toxundurmayan, yaradıcı aşıq qadınlarımızın şerləri özünün yüksəldiyi məqamından heç zaman enməsin.

Mən aşıq qadın şerini yaradan xanımlarımıza bu mənada yaradıcılıq uğurları arzulayır və onlara sənət uğurları bundan sonrada daha gözəl məqamları fəth etməyi diləyirəm.

**Ədəbiyyat**


1. Azerbaycan Aşik ve Şair kadınıları. Bakı, genclik, 1991.

2. Hüseyn İsmayılov- “Göyçə aşıq mühiti:təşəkkülü və inkişaf yolları” - Bakı, 2002.

3. Qara Namazov- “Azərbaycan aşıq sənəti” -Bakı, 1984.

4. Mürsəl Həkimov- “Aşıq sənətinin poetikası” -Bakı, 2004.